# Milli Qurtuluş tarixi: Dirçəliş yolunun başlanğıcı

*Azərbaycan xalqı tarix boyu çətin sınaqlardan keçmiş, lakin hər dəfə öz milli kimliyini və dövlətçilik ruhunu qoruyub saxlamışdır. 1991-ci ildə isə müstəqilliyini yenicə bərpa etmiş respublikamız böyük təhlükələrlə üz-üzə qalmışdı. Ölkədə hakimiyyət böhranı, siyasi qarşıdurmalar və vətəndaş müharibəsi təhlükəsi dərinləşmişdi. Belə ağır və taleyüklü dövrdə xalqın yeganə ümid yeri dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev oldu. Ulu öndərin xalqın təkidli dəvəti ilə yenidən siyasi rəhbərliyə qayıdışı ölkədə sabitliyin və inkişafın əsasını qoydu. 15 iyun 1993-cü il Azərbaycan tarixində dönüş nöqtəsi oldu və bu gün haqlı olaraq Milli Qurtuluş Günü kimi qeyd olunur. Bu tarixi hadisə dövlətimizin yenidən qurulmasının, xalqın gələcəyə inamının və milli dirçəlişin başlanğıcı kimi dəyərləndirilir.*

Müstəqilliyin bərpasından dərhal sonra, 1991-ci ilin oktyabrından başlayaraq ölkədə daxili vəziyyət və hakimiyyət böhranı yarandı. İctimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Yeni yaradılan orduda vəziyyət ağırlaşır, fərarilik artır, erməni təcavüzü gündən-günə güclənirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı, rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1992-ci il mayın 14-də hakimiyyəti ələ keçirən Xalq Cəbhəsi ilk gündən özünün qeyri-sağlam fəaliyyəti ilə ölkəni idarə edə bilməyəcəyini göstərdi. 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı. Vətənin belə ağır günündə xalq Azərbaycanın görkəmli oğlu ulu öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi, iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclis 1997-ci ilin iyununda bu günün bayram kimi qeyd edilməsilə bağlı qərar verdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaratdı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıldı.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, milli ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunub. Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və gerçəkləşdirilməsi ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış, müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Ümummilli lider Heydər Əliyevin son dərəcə gərgin fəaliyyət nəticəsində pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi və demokratik prinsiplərin bərqərar olması, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin daxili siyasəti Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. Ümummilli lider fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi prioritet sahələr olub.

Ulu öndər Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasəti ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb. Azərbaycan dövlətinin xarici siyasəti dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olub. Ulu öndər Heydər Əliyevin fəal diplomatiyası dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə səbəb olub.

Ulu öndər Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edib. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlığın yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı. Ulu öndər Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərib, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanıb. Ümummilli lider Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərib. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılıb və həyata keçirilib. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayıb. Böyük bir coğrafi məkanda regional qüvvələrin birləşməsində də ümummilli lider Heydər Əliyevin danılmaz xidmətləri olub. Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsində dahi lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul edib. Ümummilli lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var.

Ümummilli lider Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir və Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz ümummilli lider Heydər Əliyev yaradıb. Mənalı ömrünü xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Neçə-neçə nəsil bu böyük məktəbdən, ulu öndər Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

Ulu öndər Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 iyun - Milli Qurtuluş Gününü hər il yüksək əhvali-ruhiyyə ilə qeyd edir. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda ümummilli lider Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Qazanılan nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bu uğurların tacı isə, heç şübhəsiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun əldə etdiyi tarixi şanlı Zəfərlər və suverenliyimizin, ərazi bütövlüyümüzün tam təmin olunmasıdır. Bu gün ölkəmiz beynəlxalq aləmdə qalib ölkə, xalqımız isə qalib xalq kimi təmsil olunur. Bütün bunlar da öz mənbəyini əlbəttə ki, 15 iyun - Milli Qurtuluş Günündən götürüb.

15 iyun - Milli Qurtuluş Günü Azərbaycan xalqının tarixində əsl qurtuluş və dirçəlişin başlanğıcı olmuşdur. Bu tarix xalqın iradəsi ilə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdığı, ölkəni siyasi və sosial fəlakətdən xilas etdiyi gündür. 1990-cı illərin əvvəllərində dövlətçiliyin məhvolma təhlükəsi qarşısında qaldığı bir dövrdə ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək ölkənin xilaskarı kimi tarixə düşdü. Ulu öndərin qətiyyəti, zəngin idarəçilik təcrübəsi və müdrik siyasəti nəticəsində ölkədə sabitlik təmin olundu, dövlət institutları bərpa edildi, ordu quruculuğu prosesinə başlanıldı. Milli həmrəyliyin təmin edilməsi, hüquqi dövlətin əsaslarının qoyulması və azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi məhz bu dövrdə reallığa çevrildi. 15 iyun tarixinin əhəmiyyəti təkcə siyasi sabitliyin bərpası ilə məhdudlaşmır. Bu gün ölkənin iqtisadi inkişafının, beynəlxalq nüfuzunun və qalib dövlət statusunun təməli məhz həmin dövrdə atılmışdır. Ümummilli Liderin müəyyən etdiyi strateji kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Milli Qurtuluş Günü müstəqilliyimizin ikinci nəfəsi, milli dövlətçiliyimizin qurtuluşu, xalqımızın gələcəyinə inamının rəmzidir. Tarixi və siyasi baxımdan, müstəqil Azərbaycanın inkişafı yolunda ən mühüm dönüş nöqtəsi olmaqla, hər bir vətəndaş üçün fəxr və qürur günüdür. Bu gün həm keçmişi unutmamaq, həm də gələcəyə daha inamla irəliləmək üçün milli birliyin simvoluna çevrilib.

**Zahid CƏFƏROV,**
**YAP Yasamal rayonu "Z.Xəlilov küç.33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri, BDU-nun Hüquq fakültəsinin professoru, h.e.d, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Hüquq Komissiyasının və Böyük Qarakilsə rayon icmasının sədri.**